

# SÖZ HAQQINDA SÖZ

## Sözü yaradanlara və yaşadanlara - sözlə yaşayanlara ithaf edirəm

Nizaməddin ŞƏMSİZADƏ

Tələbəlik illərindən (1972-77) saysaq əlli ildir ədəbi tənqidlə məşğulam. ədəbiyyat tariximizdə filosof tənqidçi, nəzəriyyəçi, ədəbiyyatşünas kimi yer eləmişəm. yarım əsrdir ki, "Söz gözəlinin nazını çəkirəm" (Füzuli) və bundan qürur duyuram, həzz alıram, usanmıram. Ömrümün əsas günlərini Sözlə söhbətlə keçirirəm. yuxusuz gecələrdə Sözlə baş-başa verib dərdləşirəm. Sözdən yaxın dostum, sözdən gözəl sevgilim yoxdur. Darıxanda, kədərlənəndə Füzuli Sözünün ətəyinə baş qoyuram. Həyat məni incidəndə, Mirzə Ələkbər Sabirin - dünyadan ciyəri qan olub gedən şairin Sözü ilə təsəlli tapıram. Vəsiyyət edəcəyəm ki, Füzulinin "Divan"ını, Sabirin "Hophop"naməsini qəbrimə qoysunlar. Sinə daşıma yazsınlar: "Burada bir söz aşiqi yatır!"

Mən ərşdən gələn sözü, fərşdə qəbul etmişəm, onu urvatdan düşməyə qoymamışam:

*Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,*
*Edə hər saat səni ol uyqudan bidar söz.*

***(Füzuli)***

Sözə ehya vermək olsun gərək, hər bir qələm əhlinin, Söz gülüstanında gəzən aşiqin vəzifəsi. Gərək Sözə canından can verəsən, Sözdən can alasan çünki, "Söz candır əgər bilirsə insan" (Füzuli). Söz müqəddəsdir, "söz qəlbimizə nazil olur" (Füzuli). Dörd müqəddəs səma kitabı "Zabur", "Tövrat", "İncil", "Quran" Sözlə yazılır, "İncil" "sözə alğış!" sözləri ilə başlayır.

Söz Eşqin, Tarixin, Fikrin yuvasıdır, insan eşqini sözlə bəyan edir. İnsanı insan edən Sözdür. Söz İnsan deməkdir. "Sözün əsas funksiyası yaddaşı idarə etməkdir" (Rəhim Əliyev). Söz insanlar arasında ünsiyyət yaradır, söz olmasa insanlar bir-birini başa düşməz.

Söz cəmiyyəti təşkil edən enerji mənbəyidir. "Gedər xəncər yarası, getməz söz yarası". SÖZün qüdrətinə söz yoxdur. Söz də var, söz də: Söz var ki, kəsdirər başı, söz də var kəsər savaşı" (Xətai). İnsan dünyanı idrak imkanına görə SÖZə borcludur.

*Dinləgil bu sözü ki, cahandır söz*
*Aliyu asiman məkandır söz*
*Kafi-nundan vücuda gəldi cahan*
*əgər anlar isən əyandır söz.*
*Aqil isən sözünü müxtəsər et.*
*Ey Nəsimi, çü bigiryandır söz.*

Söz həm cahandır, həm də iki cahanı bir (vəhdət!) edən qüdrətdir. Sənətin bir pozulmaz qanunu var: sözün yeri dar, mənanın yeri geniş! Şeyx Nizami belə deyib:

*Sözün də su kimi lətafəti var*
*Hər sözü az demək daha xoş olar*
*İnci tək sözlər seç az danış, az din*
*Qoy az sözlərinlə dünya bəzənsin.*

Bədii Söz dünyanın bəzəyidir, onun geniş haləsi (aurası!) var. Aurası Sözün poetik imkanlarını əks etdirir. Sözü az, məqamında, məntiq və mənasında işlətmək, insandan istedad - Sözə vaqif olmaq ariflik - Söz fəhmi tələb edir.

*Gər çox istərsən, Füzuli, izzətin, az et sözü,*
*Kim, çox olmaqdan qılıbdır, çox əzizi xar söz.*

Sözü həm bədii poetik, həm də dəqiq işlətmək, şairin hünəri sayılsın gərək. Sözün qüdrəti fikrin, mənanın dəqiqliyində təzahür edir. Dəqiq (həm də bədii!)Söz şeirdə və nəğmədə görünür. "Əsl şeir dil ilə musiqi arasında xüsusi bir sənətdir. Şeir dilin musiqisi və musiqinin dilidir" (Əkrəm Cəfər). Sözdən Söz çıxarma deyimi var və bu sözün çoxmənalılığına işarədir.

Qədim insan Sözdən onu əhatə edən aləmdəki əşyaları adlandırmaq, onları bir-birindən fərqləndirmək üçün istifadə edib. Səsdən Sözə keçid bəşər tarixində ən böyük sivilizasiyadır. Söz səsin görüntülü formasıdır. Sözü mənalarına görə ayırmaq insan psixologiyasını formalaşdırıb. Mövcudatın sirri belədir: Allahdan sonra Söz yaranıb, Allah sözlə cahanı yaradıb. Söz olmasaydı bəşəriyyət olmazdı. Nitq təfəkkürün formalaşmasına səbəb oldu "söz yaradanın mədhi sənəsi - nəğməsidir", "İlahi feyzdən bir xəzinədir söz" (Füzuli). Söz şeirdir, nəğmədir, duadır, ayindir, söz - müqəddəsdir, Allahın insanlara əmanəti olan ruhun görünən şəklidir. İnsan haqqa qovuşmaq üçün sözdən tutub haqqın dərgahına ucalır. Gözəlliyin ifadəsi olan Söz şeirdə, nəğmədə, duada və azan səsində bütün varlığı ilə zühur edir. Azan səma nəğməsidir. Haqq dərgahına yetişmiş insanın nəfəsidir.

Bu nəfəsdə göylərin qüdsiyyəti, bəşərin ünsiyyəti var. Azan müqəddəslərin ruhu ilə yüklənmiş ən ülvi söz - nəğmədir: müqəddəslik fəlsəfəsi - Azan səsi! Söz çoxmənalı sözdür. Sözdə hərflər danışır. Bədii söz simvolikdir, mücərrəddir. Söz hamı üçün deyil, anlayan, dərk edən "Fəhm qılanlar" (Füzuli) üçündür. Sözün qəlbi var. Sözün sehri onun qəlbindədir. Elə bu səbəbdən də -

*Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz*
*Bu quş dilidir, bunu Suleyman bilir ancaq.*

Şeirdə Söz divara hörülmüş kərpic kimidir, bir sözü çıxarsan misra və ahəng pozulacaq, divar pozulacaq. Sözlə zarafat etmək olmaz, bu milli sərvətimiz olan dilə hörmətsizlikdir. Bu mənəviyyat üçün təhlükəlidir.

Sözə münasibət zərgər dəqiqliyi, şairdən "incitək sözlər seçmək" (Nizami) tələb edir. Mən bir neçə il əvvəl müəllimim "Azərbaycan dili" dərsliyinin müəllifi professor Yusif Seyidova ərklə: "Yusif müəllim, dilçilər sözlə dülgər taxta ilə məşğul olan kimi rəftar edir, ədəbiyyatçılar isə sevgili kimi sözü əzizləyir" dedim. Yusif müəllim gülüb dedi: "Düz deyirsən, biz sözə material kimi baxıram". Söz kimliyindən asılı olmayaraq, hamıdan incə rəftar, həssas münasibət, səmimi yanaşma, duyum və fəhm tələb edir. Naşı münasibət, sözü gül kimi soldurur. Azərbaycan türk sözündə türk epos mədəniyyətinin "Kitabi-Dədə Qorqud"un bayatı və laylalarımızın, qoşma, gəraylı və təcnislərimizin Nəsimi poetik coşqusunun, Füzuli qəminin, sabir Gülüşünün nəfəsi və ətri var.

Söz ilahi sehrə malikdir: "Bir qəddar şah ehtiyat etdiyi müdrik adamları zindana saldırır. Yalnız bir cam iylənmiş su verib öldürürmüş. Növbəti dəfə sözü üzə deyən bir alimi zidana saldırır. Iki həftə keçir. Xəbər gəlir ki, alim ölməyib. şah alimi hüzuruna gətirib soruşur: hesabla sən ölməli idin, sağ qalmağının sirrini desən səni azad edərəm. Alim deyir: mən siz verdiyiniz su ilə söhbət etdim, ona dua etdim, su təizlənib, dirildi. Mənimlə danışdı, ondan sonra bu suyu içdim. Şah müdrik alimi həbsdən azad edir".

Deyirlər ki, "salavat gücə bağlıdır". Sözün gücü onu deyənin şəxsiyyətindən, sözün ifadə etdiyi həqiqətdən asılıdır. Şəxsiyyətin sözü bir ordunun gücünə bərabərdir.

Böyük söz böyük ehtirasdan yaranır. Böyük ehtirasdan yaranmayan söz, böyük fikir ifadə edə bilməz. Ümumiyyətlə "heç bir böyük iş ehtiras olmadan görülə bilməz" (Q.Qaliliy). Yaradıcılıq üçün ehtiras zəruri şərtdir. Yalnız bu zaman "yaratmaq, ölümü öldürməkdir" (R.Rolland). yaradıcılıq üçün yeni söz deməkdən ötrü təkcə istedad azdır çünki, "istedad işləyir, dahi isə yaradır" (Robert Şulman). Istedad zəhmət sayəsində məqsədə nail olur. Istedadın uzun zəhmət ilə nail olduğu həqiqəti dahi bir göz qırpımında tapır. Bütün bunların sayəsində isə "zaman keçir, Söz qalır" (Atalar sözü). Söz sadəcə qalmır, tarix yaradır. Söz zamanın dalğaları üstündə adlatıb, tarixi əbədiyyətə doğru aparır. Dahilər əbədiyyət yolçularıdır. Söz insanlığın tarixində və taleyində dahiləri yaşadan, ölməzliyə qovuşduran vasitədir yaradıcılıqda -

*Bizdən də bir söz qalacaq, ay aman*
*Kimlər bizdən söz salacaq, ay aman*

(M.Şəhriyar) - nigarançılığı mürgüləyir. onu qorumaq lazımdır. Bunu yalnız sözün həqiqəti icra edə bilər. sözün gözəlliyi ifadə etdiyi həqiqətin siqlətindədir. Həqiqət sözün hünəridir, söz yazanın istedanını və şəxsiyyətini əks etdirir.

Söz tarixə işıq salır, bəşəriyyətə gələcəyin yolunu göstərir. Gələcək ümid deyil, reallıq, həqiqətdir. Həqiqətə xidmət etmək şəxsiyyətin ucalığıdır. Mənim sözün türkün ən şirin ləhcəsi olan Oğuz sözüdür. O türk fatehlərin hayqırtısından möhtəşəm türk epos mədəniyyətindən, sevgi ilə dolu romantik türk nəğmələrinin zərifliyindən çıxıb gəlib. Qədim türkün yerlə üfüq arasında sərhədsiz düşüncəsində cilalanıb.

Mütəxəssislər, dilçilər və musiqiçilər etiraf edir ki, dünya dilləri içərisində bir azərbaycan türkcəsi bir də italyan dili oz musiqiliyi ilə seçilir. Bu hər şeydən əvvəl, sözdə ahəngdar səslərin çoxluğu sayəsində mümkün olur. Azərbaycan dilinin ahəngi, Ahəng qanunu- sözdə eynicinsli saitlərin bir-birini izləməsi sayəsində dinamikası isə feillərin hesabına mümkün olur. Nəsimi şeirində ruhu coşduran, Füzuli poeziyasında isə ruhu sakitləşdirən sözlərdən daha çox istifadə olunur.

*Üzün məndən nihan etmək dilərsən, etmə gil,*
*Gözlərim yaşın rəvan etmək dilərsən, etmə gil,*
*Canımı vəslin şərabından ayırdın ey gözüm,*
*Eynimi gövhərfəşan etmək dilərsən, etmə gil!*
*Çünki, eşqimin məskənidir, könlümün viranəsi*
*Həsrətə anı məskən etmək dilərsən, etmə gil!*

**(Nəsimi)**

*Zülfə kimi ayağın qoymaz öpə nigarım,*
*Yoxdur onun yanında bir qılca etibarım.*

**(Füzuli)**

Bir var yazılı (ədəbi) söz, bir də var şifahi söz. Azərbaycan dilşünaslığında yazılı söz kifayət qədər öyrənilib, onun tarixi və nəzəriyyəsi filoloji aspektdə təhlil olunub. Fəqət şifahi söz nisbətən az öyrənilib. Dilimizin lüğət fondu iki yolla - xalq danışıq dili və ədiblərimizin bədii əsərləri vasitəsi ilə zənginləşir. Istedadlı yazıçı və şairlər yeni söz yaradır, ortabablar, istedadsız cırmaqaraçılar hazır sözdən istifadə edib, ona istehlakçı münasibət bəsləyib, sözü urvatdan salıblar. Istedadlı tənqidçilər sözün keşiyini çəkir.

Sözün sehri həqiqətdir! - mən bu fikri 30 il əvvəl söyləmişəm. Həqiqəti demək də, eşitmək də çətindi. Həqiqəti qorumaq şəxsiyyətlərin vəzifəsidir. Həqiqətin silahı faktlardır. Həqiqət faktlarla silahlananda tarixə çevrilir. Tarix həqiqətin obyektiv meyarıdır. Həqiqəti ifadə edən Söz milli sərvətdir, Yadın Yaddaş üzərində hökmranlığına imkan verməyən etibarlı qüvvədir. Biz Sözümüzlə Özümüzü tanıdırıq, Sözdən Özə gedirik. Söz milli yaddaşın etibarlı saxlancıdır. Milli yaddaş sözdə həmişə canlı qalır.

Söz insanın varlığını, insanlığını təsdiq edən işarələr sistemidir. Millətin kimliyini hər şeydən əvvəl söz əks etdirir. Milli yaddaş söz-söz, ilmə-ilmə açılır. Söz insan psixologiyasının açarıdır.

Sözümüz xalqımız qədər qədimdir. Biz sözümüzü Yaddaşa və Daşa həkk etmişik. Orhon Yenisey daş kitabələri, Qobustan daş abidəsi, sözümüzün.ilki, Daş yaddaşıdır. Türkün sözü, daş yaddaşından, ağrı yaddaşına - ədəbiyyata köçüb. Ədəbiyyatdan Əbədiyyətə yol alıb. Bədii sözlə yaradılan ədəbiyyat əbədiyyətdir.

Söz xalqın tale güzgüsüdür. Milli taleyimiz sözümüzdə həkk olunub - Söz milli bəxt aynasıdır. Dünyada mövcud olan hər şey, hər bir olay barəsində söz danışır. Söz gerçəkliyin nəhəng obrazıdır. Mən çalışdım ki, Söz haqqında da Söz danışsın, bilmirəm buna nail oldummu?!

Sözün ölməzliyinə inamla...